*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 1* *ISSN 2663-4368*
*Səhifə: 191-196* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.1.191*

# XIV-XV yüzilliklərdə mərkəzləşdirilmiş dövlət siyasəti fonunda Azərbaycan dili

**Aynur Nəzərova**
Van Yüzüncü Yıl Universiteti,
Sosial elmlər İnstitutu Tarix bölümünün doktorantı
E-mail:xubanova77@mail.ru

**Annotasiya.** Vətən tarixşünaslığında XIV–XV yüzilliklər xalqımızın müstəqil dövlətçilik ənənələrinin bərpası, türk etnik amilinin güclənməsi kimi səciyyələnir. Bu dövrdə regionda baş verən tarixi-siyasi dəyişikliklər, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranması və onların mərkəzləşdirilmiş idarəetmə siyasəti milli dövlət quruculuğu siyasətinə birbaşa təsir göstərmişdir. Ümumiyyətlə, hər hansı tarixi dövrün tədqiqində həmin dövrdə mövcud olmuş siyasi qurumlar (bu tədqiqatda, əsasən, Ağqoyunlu dövləti), dövrün sosial-iqtisadi münasibətləri ilə yanaşı, dil siyasəti və dilin funksional rolu da araşdırılmalıdır. Dil siyasəti hər bir dövlətin ərazisi, ölkənin mədəni inkişaf səviyyəsi, iqtisadi-mədəni, siyasi-ictimai, din və s. amillərdən asılı olaraq müxtəlif istiqamətlərdə həyata keçirilmişdir.
Məlumdur ki, orta çağın qüdrətli Azərbaycan türk imperiyası olan Ağqoyunlu dövləti Azərbaycanın, eləcə də Şərqi Anadolunun etnik tarixində mühüm rol oynamış, dövlətçilik mədəniyyəti Həsən padşahın hakimiyyəti illərində daha da inkişaf etmişdir. Onun güclü dövlətçilik siyasəti fonunda Azərbaycan dilinə xüsusi əhəmiyyət verməsi XIV əsrdən inkişaf etməkdə olan Azərbaycan dilinin ədəbi-bədii dil olaraq inkişafına şərait yaratmışdı. Azərbaycan türkcəsi yalnız ünsiyyət vasitəsi kimi deyil, mərkəzləşdirilmiş dövlət ideologiyasının ifadə vasitəsinə çevrilmişdir.
Məqalədə dil siyasətinin milli dövlət quruculuğunun ən ümdə amillərindən biri olduğu vurğulanır və XIV–XV yüzilliklərdə dövlət siyasəti fonunda Azərbaycan dilinin rolu geniş şəkildə təhlil olunur.
**Açar sözlər:** Azərbaycan, dil, dil siyasəti, türk, Ağqoyunlu, Həsən padşah

**Məqalə tarixçəsi**: göndərilib – 27.02.2025; qəbul edilib – 13.03.2025

## The role of Azerbaijani language in state policy in the 14th-15th centuries

**Aynur Nazarova**
Doctoral student at Van Yüzüncü Yıl University,
Institute of Social Sciences, Department of History
E-mail: xubanova77@mail.ru

**Abstract.** The XIV–XV centuries are characterized in Azerbaijani historiography as the strengthening of the Turkic ethnic factor and the restoration of the traditions of independent statehood. In general, when studying any historical period, the states that existed in that period (in this study - the state of Aq Qoyunlu), the socio-economic relations relevant to the period, and the language are also examined. The language policy was implemented in different directions depending on the level of cultural development of the country, economic-cultural, political-social influences, religion and a number of factors. The statehood culture of Aq Qoyunlu state, which played an important role in the ethnic history of Azerbaijan and Eastern Anatolia, the powerful Azerbaijani Turkic Empire of the Middle Ages, developed during the reign of Hasan Padishah. His special importance to the Azerbaijani language in the state policy created conditions for the development of our language as a literary and artistic language, which has been developing since the 14th century.

The article emphasizes that language policy is one of the most important factors in national state building and analyzes comprehensively the role of the Azerbaijani language in the context of state policy in the 14th–15th centuries.
**Keywords:** Azerbaijan, language, language policy, Turkish, Aq Qoyunlu, Hasan Padishah

**Article history:** received – 27.02.2025; accepted – 13.03.2025

## Giriş / *Introduction*

Azərbaycanın dövlətçilik ənənələrinin tədqiqi tarixşünaslıqda mühüm yer tutur. Bu kontekstdə dil siyasəti məsələsi milli dövlət quruculuğunun əsas istiqamətlərindən biridir. Tarixə nəzər saldıqda XIV–XV yüzilliklər türk kimliyinə əsaslanan dövlətçilik modelinin formalaşması, dil siyasətinin dövlət siyasətinə çevrilməsi və müstəqil idarəetmə ənənələrinin bərpası baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu dönəmdə Qaraqoyunlu və Ağqoyunlu tayfaları öz siyasi strukturlarını formalaşdıraraq müstəqil dövlətlərə çevrilmiş, türk kimliyinə əsaslanan dövlətçilik modelinin əsasını qoymuşlar. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranması Azərbaycan tarixində bir neçə aspektə görə dönüş nöqtəsi olmuşdur: birincisi, XIII əsrdə Eldənizlər dövlətinin süqutundan sonra (1225) hakimiyyətə yerli türk sülalələri gəlmişdi. İkincisi, bu dövlətlər Azərbaycanın tarixi ərazilərini əhatə etməklə onun hərbi-siyasi, iqtisadi və mədəni inkişafına təkan vermişdi. Sözügedən dövlətlər regionun beynəlxalq münasibətlərində iştirak etməklə yanaşı, Avropa – Şərq əlaqələrində də öz mövqelərini gücləndirmişlər [2, s.192]. Dil faktoru bu mərhələdə həm milli kimliyin, həm də dövlətçiliyin daşıyıcısı rolunu oynamışdır. Tədqiqatlara görə, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin qurucuları etnik baxımdan Azərbaycan türklərinə mənsub olmuş, onların danışıq və yazı dili isə Azərbaycan (türk) dili olmuşdur. Bu faktı sovet şərqşünası İ.P. Petruşevski, həm də türk tarixçisi Faruq Sümer də öz araşdırmalarında vurğulamışlar [9, s.25; 15, s.13].

Azərbaycanda mərkəzləşdirilmiş dövlətçilik ənənələrinin formalaşması və bu çərçivədə dil siyasətinin dövlət siyasətinin tərkib hissəsinə çevrilməsi baxımından XIV–XV yüzilliklər mühüm mərhələdir. Bu dövrdə Azərbaycan türkcəsi yalnız ünsiyyət vasitəsi kimi deyil, ədəbi və inzibati dil kimi də istifadə olunmuş, mərkəzləşdirilmiş dövlət ideologiyasının ifadə vasitəsinə çevrilmişdir.

### Mərkəzləşdirilmiş dövlət siyasəti fonunda dil faktoru və XIII–XV yüzilliklərdə Azərbaycan türkcəsi

Dövlət siyasətinin mühüm xüsusiyyətlərindən biri dil üzərindəki hakimiyyətdir. Dil yalnız milli kimliyin təzahürü deyil, həm də tarix boyu mərkəzləşdirilmiş dövlət siyasəti kontekstində aparıcı qüvvə olmuşdur. Dil siyasəti – milli kimliyin formalaşması və inkişafı məqsədilə dövlətin həyata keçirdiyi planlı tədbirlər toplusudur. Milli-mənəvi dəyərlərin dirçəlməsi, dövlət dilinin təsir gücünün artması və cəmiyyətin davamlı inkişafı bu siyasəti sosial-mədəni tərəqqinin vacib tərkib hissəsinə çevirir. Doğru istiqamətdə qurulmuş dil siyasəti milli rifahın əsaslarından biridir.

Mərkəzləşdirilmiş dövlət siyasəti fonunda dil siyasəti tarixi dövrlərə və ictimai-siyasi, dini, mədəni amillərə uyğun həyata keçirilmişdir. Azərbaycan türkcəsi Türk tarixində özünəməxsus bir iz qoymuş Qaramanoğulları bəyliyinin qurucusu Qaramanoğlu Məhəmməd bəy tərəfindən 1277-ci ildə dövlət dili elan edilmiş və bununla dövlətçilik tariximizdə önəmli bir nailiyyətə imza atılmışdı. Onun “Bundan sonra heç kimsə dərgahda, divanda, məclisdə və meydanda Türk dilindən başqa dildə danışmasın” əmri türk dilinin dövlət statusunun güclənməsinə ciddi təkan vermişdir. Qaraqoyunlu və Ağqoyunlu hökmdarları da dövlət idarəçiliyində türkdilli əyanlara və hərbi elitalara əsaslanmaqla yanaşı, ictimai və mədəni sahələrdə də türk kimliyini gücləndirməyə yönəlik siyasət yürütmüşlər. Ağqoyunlu Həsən bəy Bayandur və onun varislərinin dövründə Azərbaycan türkcəsi ədəbi dil kimi inkişaf etmiş, türkcə yazmaq siyasi iradə ilə stimullaşdırılan dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir. Mərkəzləşdirilmiş dövlət

strukturlarının formalaşması ilə türkcə yazılmış inzibati sənədlər, hüquqi mətnlər və rəsmi məktublar geniş yayılmış, Azərbaycan türkcəsinin terminoloji və funksional imkanları xeyli artmışdır. Beləliklə, XIV–XV yüzilliklərdə Azərbaycan dilinin inkişafı yalnız ədəbi mühitlə deyil, siyasi idarəetmə mexanizmləri ilə də bağlı olmuşdur. Bu tarixi şəraitdə Azərbaycan türkcəsi milli kimliyin ifadəçisi, dövlətçilik ənənələrinin daşıyıcısı olaraq mərkəzləşdirilmiş dövlət siyasətinin dəstəyi ilə cəmiyyətin müxtəlif təbəqələri arasında nüfuz qazanaraq regionun mədəni və kommunikativ dili statusunu möhkəmləndirmişdir.

XIII–XV yüzilliklərdə Azərbaycan türkcəsi ictimai və siyasi nüfuz baxımından geniş coğrafiyada – Şərqi Anadolu, Şimali və Cənubi Azərbaycan, Xorasan, Bağdad, Misirdə yayılmış, bir sıra qeyri-azərbaycanlı müəlliflər də bu dildə əsərlər yazmışdır [5, s.177]. Bu dövrdə dilçiliyin inkişafı da müşahidə olunmuş, çoxsaylı tərcümə lüğətləri tərtib edilmişdir. Tarixi lüğətlər bir xalqın dili, adət-ənənələri və leksik tərkibi haqqında mühüm məlumat mənbəyidir. Hüsaməddin Xoyinin "Töhfeyi-Hüsam" mənzum lüğəti bu baxımdan Azərbaycan leksikoqrafiyası tarixində xüsusilə əhəmiyyətlidir. Bundan başqa, ümumtürk dillərinin tarixinin öyrənilməsində müstəsna rola malik orta əsr lüğətləri arasında XIV əsrin əvvəllərində Seyid Cəmaləddin İbn Mühənnanın yazdığı güman edilən "Hilyət ül-insan və helbət ül-lisan" ("İnsanın bəzəyi və dilin sahəsi") əsəri də Azərbaycan türkcəsinin leksik potensialını əks etdirir. İbn Mühənna türkcələrin hamısını əhatə edən lüğətində Azərbaycan ədəbi dilini "Bizim məmləkət türkcəsi" adı altında təqdim edir. Lüğət Azərbaycandakı müxtəlif peşə, sənət, fəaliyyət sahələrinə aid terminlərlə zəngindir. Həmin terminlər içərisində yer yağı (neft) ifadəsi xüsusi maraq doğurur və əsəri bir daha Azərbaycanla bağlayır [12, s.29].

M. Naxçıvaninin "Sihah əl-furs" lüğətində "Azərbaycan dili" termini yer alır ki, bu da onun tarixi köklərə malik olduğunu sübut edir. E.Piriyev yazır: "Sihah əl-furs" lüğətində diqqətçəkən məqam "Zəban-e Azərbaycanı", yəni Azərbaycan dili istilahının işlənməsidir" [11, s.15]. Bu faktlar dövlətçiliyimizin tarixi baxımından əhəmiyyətlidir. Beləliklə, istənilən dövrün tədqiqində (bu tədqiqatda – Ağqoyunlu dövləti) dövlətçilik, iqtisadi münasibətlər, mədəniyyət və dil də öyrənilməlidir. Çünki dil xalqın varlığını və tarixi davamlılığını müəyyən edən əsas amildir.

**Ağqoyunlu dövlətinin tariximizdəki yeri**

Ağqoyunlu dövləti (1468–1501) qüdrətli Azərbaycan türk imperiyası kimi təkcə Azərbaycan ərazilərini deyil, qonşu ölkələrin torpaqlarını da əhatə etmiş, Türk-İslam dünyasında siyasi və mədəni dirçəlişə mühüm töhfə vermiş, Azərbaycanın və Şərqi Anadolunun etnik-siyasi tarixində əsas rol oynamışdır.

XV əsrin əvvəllərindən Azərbaycan türklərinin milli inkişafında yeni mərhələ başlanmış, Oğuz-türk dövlətçilik ənənələrinə əsaslanan müstəqil – Qaraqoyunlu və Ağqoyunlu dövlətləri qurulmuşdur. Bu dövrdə Oğuzlar (türkmanlar) təkcə etnik deyil, siyasi baxımdan da bölgədə üstün mövqe əldə etmişlər. Dərbənddən Diyarbəkirə, Ərdəbildən Ərzincana qədər, yəni Azərbaycan və Şərqi Anadolu torpaqları "Türkman eli" kimi tanınmağa başlamışdır [8, s.5].

Azərbaycan tarixşünaslığında Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi ilk dəfə sistemli şəkildə XX əsrin ortalarında İ.P. Petruşevski tərəfindən araşdırılmış və onun bu sahədəki əsərləri 1949-cu ildə nəşr olunmuşdur [10, s.144–213]. Faruk Sümer isə Ağqoyunluları XV əsrin siyasi proseslərində mühüm rol oynamış qüvvə kimi dəyərləndirir, Qaraqoyunlu və Ağqoyunluları Şərqi Anadolunun müasir türk əhalisinin etnik mənşəyi ilə əlaqələndirir [14, s.12].

Ağqoyunlular XIII əsrin sonlarında Xorasandan Anadoluya köç etmiş Oğuz türklərinin tayfa birliyi olaraq Azərbaycanın və Türkiyənin müxtəlif bölgələrində məskunlaşmışdılar. Səlcuqlu dövlətinin zəifləməsi və Elxanilərin süqutundan sonra bu tayfa birliyi güclənərək dövlət qurmuşdur [7, s.15]. Azərbaycanın etnik-siyasi və dövlətçilik tarixində mühüm yer tutan Ağqoyunlular Bayandur tayfasına mənsub olduqları üçün "Bayanduriyyə" adı ilə də tanınırdılar [1, s.79]. Onlar türk dövlətçilik ənənələrinin yaşadılmasında əhəmiyyətli rol oynamışlar.

**Həsən padşahın mərkəzləşdirilmiş dövlət siyasəti fonunda Azərbaycan türkcəsi**

Həsən padşahın (1468-1478) hakimiyyəti dövründə Ağqoyunlu dövləti Yaxın və Orta Şərqdə qüdrətli hərbi-siyasi gücə çevrildi. Müxtəlif xalqları və ölkələri öz tərkibində birləşdirən bu geniş ərazili dövləti möhkəmləndirmək məqsədilə Həsən padşah mərkəzləşdirilmiş ida-

rəetmə modelinə əsaslanan islahatlar həyata keçirmişdi. Bu islahatların mühüm hissəsini təşkil edən "Qanunnamə" sənədi dövrün hüquqi və maliyyə sisteminin təkmilləşdirilməsində mühüm rol oynamışdır. "Qanunnamə"nin mətni günümüzə tam şəkildə gəlib çatmasa da, salnamələrdə "Həsən Padşahın qanunları" kimi qeyd olunması onların əhəmiyyətini göstərir. Bu "Qanunlar" türk hüquq və maliyyə tarixi üçün önəmli qaynaq olduğu kimi, türkcənin inkişaf mərhələlərinə də işıq tutacaq bilgilər verir.

Tədqiqatlar göstərir ki, "Qurani-Kərim"in Azərbaycan türkcəsinə ilk tərcüməsi məhz Həsən padşahın təşəbbüsü ilə gerçəkləşdirilmiş və bu tərcümə onun hüzurunda oxunmuşdur. F. Sümerin bildirdiyinə görə, Uzun Həsən Quranı türkcə oxumağı ibadət saymış [3, s. 208-209] və bəzi din xadimlərinin müqavimətinə baxmayaraq, bu təşəbbüsü həyata keçirmişdir [16, s.381; 6, s.449-451]. Tərcümədə türk dillərinin müxtəlif dialektlərindən istifadə olunsa da (tərcüməçi məlum deyil), bu Quran tərcüməsi Azərbaycan türkcəsinin nümunəsi sayılır. Tərcümənin yeganə nüsxəsi Məşhəddə İmam Rza Muzeyində qorunur. Qızıl su ilə yazılmış "Allah" adı və bəzəkli surə adları bu nüsxənin xəttatlıqla yanaşı, dil baxımından da yüksək dəyərə malik olduğunu göstərir.

Ağqoyunlu hökmdarı hər cümə axşamı Təbrizin üləmalarını bir araya toplayırdı. Bu məclislərdə İmam əl-Buxarinin "əl-Camiüs-səhih" əsərindən hədislər oxunurdu. F.Sümer yazır ki, Uzun Həsən müqəddəs kitabı türkcə oxumağı da bir ibadət hesab edirdi. Dövrün qaynaqlarında qeyd edilir ki, Təbrizə Ağqoyunlu sarayına səfir olaraq gəlmiş Məhəmməd əl-Hələbinin iştirakı ilə keçirilən toplantılarda belə hədislərin türkcə izah olunması dilə göstərilən diqqətin bir başqa göstəricisidir. Həsən padşahın kitabxanasında Mövlananın "Məsnəvi"si və Aşıq Paşanın "Qəribnamə"si kimi türkcə əsərlərin yer alması da bu mövqeni bir daha təsdiqləyir [13, s.24-25]. Beləliklə, Həsən padşahın həyata keçirdiyi mərkəzləşdirilmiş dövlət siyasəti fonunda Azərbaycan türkcəsinə verdiyi önəm bu dilin ədəbi-bədii statusunun möhkəmlənməsinə və geniş dairədə işlənməsinə şərait yaratmışdı. Ədəbi-mədəni mühitin milli dildə inkişafı isə bu dilin həm siyasətdə, həm də mədəniyyətdə möhkəmlənməsinin əsas amillərindən biri olmuşdur.

**XIV-XV yüzilliklərdə Azərbaycan ədəbi-bədii dili**

XIV-XV yüzilliklərdə Azərbaycan ədəbi-bədii dili ümumtürk ədəbi dillərindən biri kimi formalaşaraq qədim türk yazı ənənəsinin varisi qismində çıxış etmişdir. Bu mərhələdə meydana çıxmış mənbələrin dili həm dil normasına, həm də funksional-üslubi imkanlarına görə qədim türk yazı abidələrinin dilinin davamıdır: Y.Balasaqunlunun "Qutadqu-biliq", Ə.Yasəvinin "Divani-hikmət" əsərləri (XI–XII əsrlər) olmasa idi, XIII–XIV əsrlərin Azərbaycan məsnəviləri və Nəsiminin "Divan"ı meydana çıxmazdı. İlkin orta əsrlərdən etibarən əvvəl qədim türk (runik) mətnlərində, sonra uyğur abidələrində təzahür edən, daha sonra isə müəyyən regionla fərqlərlə geniş bir ərazidə yayılan ümumi türk ədəbi dili (türki) Azərbaycan ədəbi dil mənbələrində bu və ya digər dərəcədə "iştirak etmiş" və XVI–XVII əsrlərə qədər mövcud olmuşdur [5, s. 180]. Bu dövrdə ərəb və fars dillərində yazmaq ənənəsi zəifləmiş, Azərbaycan türkcəsində poeziya inkişaf etmişdir. Anadilli ədəbiyyatın ilkin nümayəndələri sırasında İzzəddin Həsənoğlu və Səfiəddin Ərdəbili kimi lirik şairlərin qəzəlləri, müəllifi məlum olmayan "Dastani-Əhməd Hərami", eləcə də Qul Əlinin "Qisseyi-Yusif" poeması qeyd oluna bilər.

XIV əsr anadilli şeirin inkişafında Qazi Bürhanəddinin "Divan"ı xüsusi qeyd olunmalıdır. O, qəzəl janrında yazan ilk türk şairlərindən biri olaraq türkcənin estetik imkanlarını genişləndirərək poetik yeniləşmə proseslərinə töhfə vermişdir. Anadilli poeziyada fərdi üslublar Cahanşah Həqiqi, Nemətullah Kişvəri və Həbibi kimi şairlərin yaradıcılıqlarında da görünür. Xüsusilə Cahanşahın "Həqiqi" təxəllüsü ilə Azərbaycan türkcəsində yazdığı qəzəllər diqqətəlayiqdir. Ana dilində yazdığı "Eyləməz" rədifli qəzəllə tanınan Ahmed bin Veysin, yuxarıda adıçəkilən "Qəribnamə"nin müəllifi Aşıq Paşanın da adlarını qeyd etməliyik. O, ərəb və fars dilinin dominantlığına qarşı çıxaraq türkcə yazan ilk mütəfəkkir şairlərdəndir.

Farscadan "Süheylü Nevbahar" əsərini türkcəyə tərcümə edən Xoca Məsud, "Xurşidnamə" məsnəvisi ilə tanınan, xalq deyimləri və atalar

sözlərindən yetərincə istifadə edən Şeyxoğlu Mustafa, "Menakibül-Arifin" müəllifi Eflaki-Əhməd Arifi, "Divan"ı və "Cəmşid və Xurşid", "İsgəndərnamə", "Tervihul Evrah", "Əsrarnamə" kimi əsərləri ilə şöhrət qazanmış Taciəddin İbrahim Əhmədi, eləcə də böyük divan müəllifi Qazi Bürhanəddinlə yanaşı, dövrünün nüfuzlu şairlərindən olan Gülşehri də anadilli türk təsəvvüf şairləri arasında yer alır [4, s. 93]. Ağqoyunlu sarayında yaşayıb yaradan Nemətullah Kişvəri və Həbibi də Azərbaycan türkcəsinin ədəbi dil kimi möhkəmlənməsində xüsusi rol oynamışlar. Bu mərhələnin zirvəsində duran İmadəddin Nəsimi isə türkcə yazdığı 12 min misralıq "Divan"ı ilə Azərbaycan fəlsəfi düşüncəsini ərəb və fars poetik ənənələri ilə bir səviyyəyə yüksəltmişdir.

## Nəticə / *Conclusion*

Həsən bəy Bayandur tərəfindən əsası qoyulan Azərbaycan Ağqoyunlu dövləti türk kimliyinin güclənməsində rol oynamış, türk siyasi, hərbi, maliyyə, sosial və mədəniyyət tarixində dərin iz qoymuşdur. Bu dövr təkcə siyasi müstəqillik deyil, həm də türk dilinin və mədəniyyətinin inkişafı baxımından əhəmiyyətli mərhələdir. Qaraqoyunlu, Ağqoyunlu hökmdarlarının türk dilinə verdiyi dəstək nəticəsində Azərbaycan türkcəsinin istifadəsi güclənmiş, fars dilində yazmaq ənənəsi isə zəifləmişdir. XVI əsrin əvvəllərində Səfəvi dövlətinin təşəkkülü ilə Azərbaycan bölgədə daha güclü siyasi aktora çevrildi. Xüsusilə Şah İsmayıl Xətai dövründə türk dili böyük inkişaf mərhələsinə daxil olmuş, ana dildə yazıya və yaradıcılığa önəm verilmişdir. Azərbaycan türkcəsi yalnız mədəni mühitdə deyil, rəsmi və diplomatik sahələrdə də istifadə olunmağa başlamışdır. Beləliklə, orta əsrlər boyunca Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri türk dilinin ictimai nüfuzunu artırmış, onun dövlət dili kimi formalaşmasına zəmin yaratmışdır.

## Ədəbiyyat / *References*


1. Azərbaycan tarixi. 7 cilddə. III c. – Bakı: Elm, 2007.
2. Çağlayan Y., Çağlayan E.. XV əsrdə Şərqi Anadoluda Azərbaycan Türk amilinin güclənməsi (Şərəf xan Bidlisinin "Şərəfnamə" Əsəri Əsasında) Akademik tarih ve düşünce dergisi Cilt:6 / Sayı:5 / 2019.
3. Erdem İlhan, Paydaş Kazım. Ağqoyunlu dövləti tarixi. – Ankara: 2007.
4. Fəridə Hicran (Vəliyeva). Gülşehri XIV əsr anadilli türk poeziyasının nümayəndəsi kimi //AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Müqayisəli ədəbiyyatşünaslıq. – 2019, № 1, s.93.
5. Xudiyev N.M. Azərbaycan ədəbi dili tarixi. Ali məktəblər üçün dərslik. – Bakı: Elm və təhsil, 2012.
6. İsmayılzade R.M. Uzun Hasan devrinde toplanmış Kurani-Kerimin türk dillerine tercümesi. // "I Uluslararası Oğuzlardan Osmanlıya" Diyarbakır sempoziumu. 20-22 mayıs 2004. Belirtiler. – Diyarbakır: 2004, s. 449-451.
7. Mədəniyyət. – 2018, 28 sentyabr, s.15.
8. Nəcəfli T. Ağqoyunlu dövləti XV yüzillikdə qüdrətli Azərbaycan türk imperiyasıdır // Üç nöqtə. 2016, 15 sentyabr. s.5.
9. Nəcəfli T.H. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. – Bakı: Çaşıoğlu, 2000. 198 s.
10. Петрушевский И.П. Государства Азербайджана в XV века. // Сборник статьей по истории Азербайджана. Выпуск I. – Баку, 1949.
11. Piriyev E. Azərbaycan dili tarixinin öyrənilməsində lüğətlər. – Bakı: 2011.
12. Sadıqova C., Ələsgərova T. Fars dilini tədqiq edən Azərbaycan alimləri. – Bakı: 1990.
13. Sümer F. Ak-koyunlular. Türk Dünyası Araştırmaları. – İstanbul: 1986.

14. Sümer F. Kara-Koyunlular. c.I. TTK Basımevi. – Ankara: 1984.
15. Sümer F. Kara-koyunlular. //İslam Ansiklopedisi. c.I. – İstanbul: 1953.
16. Toğan Z.V. Azərbaycan etnoqrafisine dair // Azərbaycan Yurd Bilgisi, c.II. – İstanbul: 1993.

## Азербайджанский язык в контексте централизованной государственной политики в XIV-XV вв.

**Айнур Назарова**
Докторант Университета Ван Юзюнджю Йыл,
Институт социальных наук, кафедра истории
E-mail: xubanova77@mail.ru

**Резюме.** В историографическом дискурсе Азербайджана период XIV–XV вв. рассматривается как этап возрождения традиций независимой государственности азербайджанского народа и интенсификации тюркского этнического компонента. Изучение данного исторического периода требует комплексного подхода, включающего анализ политических структур того времени (в частности, государства Ак-Коюнлу), социально-экономических процессов и языковых особенностей эпохи.
Языковая политика рассматривается как многофакторное явление, формировавшееся под воздействием геополитических, социально-экономических, политико-общественных и религиозных условий. Она сыграла ключевую роль в становлении азербайджанского языка как главного элемента национального самосознания и государственной идентичности.
Государство Ак-Коюнлу, представлявшее собой влиятельную тюркскую империю средневекового Азербайджана, оказало значительное воздействие на этническую историю Азербайджана, и Восточной Анатолии. Период правления Хасана Падишаха характеризуется институционализацией государственной культуры и языковой политикой. Внимание, уделённое азербайджанскому языку в рамках государственной стратегии, обусловило его развитие как литературного и художественного средства с XIV века. В статье подчёркивается, что языковая политика являлась механизмом формирования национальной государственности, а азербайджанский рассматривался как инструмент политической консолидации и культурной интеграции в государственном строительстве XIV–XV вв.
**Ключевые слова:** Азербайджан, язык, языковая политика, тюркский, Ак-Коюнлу, Хасан Падишах